# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
# ELMİN İNKİŞAFI FONDU

Bakı şəhəri                                                                 28 aprel 2015-ci il

## Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun “Qarabağ tədqiqatları” üzrə 7-ci xüsusi “Mobillik qrantı” müsabiqəsinin (EİF-Mob-7-2014-8(23)) nəticələri haqqında

## E L A N

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu (bundan sonra - Elmin İnkişafı Fondu) ölkədə Qarabağla bağlı aparılan elmi tədqiqatların stimullaşdırılması, regional və beynəlxalq səviyyədə araşdırmaların yüksək səviyyədə təmin edilməsi, Qarabağın tarixi, xüsusilə alban kilsələri və digər tarixi abidələrlə bağlı tədqiqatların aparılması, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin, azərbaycanlılara qarşı soyqırımların, erməni təcavüzlərinin araşdırılması və bu barədə həqiqətlərin elmi əsaslarla dünya ictimaiyyətinə çatdırılmasının təmin edilməsi və Azərbaycan alimlərinə xarici ölkələrin arxivlərində işləmək imkanı yaradılması (xaricdə qısamüddətli təcrübəkeçmədə iştirak xarakterli layihələrin maliyyələşdirilməsi yolu ilə) məqsədi ilə 2014-cü ildə elan edilərək keçirilmiş “Qarabağ tədqiqatları” üzrə 7-ci xüsusi “Mobillik qrantı” müsabiqəsinin (EİF-Mob-7-2014-8(23)) nəticələrini

ELAN EDİR:

1. Elmin İnkişafı Fondu “Qarabağ tədqiqatları” üzrə 7-ci xüsusi “Mobillik qrantı” müsabiqəsinin keçirilməsi haqqında qərarını 2014-cü il 26 dekabr tarixində internet səhifəsində və kütləvi informasiya vasitələrində elan etmiş və qrant layihələrinin qəbulu üçün müddət olaraq 2015-ci il 5-30 yanvar tarixlərini müəyyənləşdirmişdir. Bu müddət ərzində Elmin İnkişafı Fondunun icraçı direksiyası qrant iddiaçılarına kömək məqsədilə 4 məsləhət seminarı təşkil etmiş, telefon və elektron-poçt vasitəsilə olan müraciətlərə cavab vermiş, ortaya çıxan suallara aydınlıq gətirmişdir.
2. Yuxarıda göstərilən müddət ərzində müsabiqəyə 9 layihə daxil olmuş, onların texniki və elmi ekspertizası işi təşkil olunmuşdur.
3. Elmin İnkişafı Fondunun icraçı direksiyası, daimi və müstəqil elmi ekspertlər təqdim

olunmuş layihələrin səviyyəsini, onların yerinə yetirilməsi imkanlarını və potensialını ekspertiza qaydalarına uyğun olaraq qiymətləndirmiş, həmçinin maliyyələşdirilmənin məqsədəuyğunluğu və həcmi barədə Elmin İnkişafı Fondunun Himayədarlar Şurası üçün arayışlar və müvafiq məlumatların daxil olduğu yekun sənədlər toplusu hazırlanmışdır.

4. Yekun sənədlər toplusuna Fondun Himayədarlar Şurası tərəfindən baxılmış, layihələr müzakirə olunmuş və nəticələr 2015-ci il 21 aprel tarixində təsdiq edilmişdir.
5. 7-ci xüsusi "Mobillik qrantı" müsabiqəsi üzrə 6 qalib layihə (siyahı ayrıca şəkildə verilir) müəyyənləşdirilmiş və Elmin İnkişafı Fondunun 2015-ci il 28 aprel tarixli Qərarı ilə təsdiq olunmuşdur. Bu müsabiqə üzrə ümumi maliyyələşdirilmə həcmi 36000 manat olmuşdur.
6. Bu elan verildikdən sonra müəyyənləşdirilmiş müddət ərzində Elmin İnkişafı Fondunun icraçı direksiyası ilə hər bir qalib layihənin rəhbəri arasında layihənin yerinə yetirilməsi barədə lazımi sənədlər toplusu hazırlanmaqla müvafiq müqavilə bağlanılacaq və qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçiriləcək və maliyyələşdirilmə həyata keçiriləcəkdir.
7. Elmin İnkişafı Fondu 7-ci xüsusi "Mobillik qrantı" müsabiqəsinin qaliblərini təbrik edir, müsabiqə iştirakçılarına və ekspertlərə minnətdarlığını bildirir.

***Elmin İnkişafı Fondunun icraçı direksiyası***